**AYGÜN MUSA qızı MƏMMƏDOVA**
*AMEA Milli Azərbaycan Tarixi Muzeyinin Numizmatika Fondunun müdiri,*
*Qərbi Kaspi Universiteti,*
*tarix üzrə fəlsəfə doktoru*
E-mail: aygun_kons@mail.ru

# QUBA RAYONUNUN ÇİLƏGİR SİKKƏ DƏFİNƏSİ XII – XIII ƏSRLƏRİN PUL TƏSƏRRÜFATINI AÇIQLAYIR

**Xülasə:** Məqalədə Quba rayonunun Çiləgir kəndində tapılmış və hazırda AMEA Milli Azərbaycan Tarixi Muzeyinin Numizmatika Fondunda qorunan 46 ədəd sikkədən ibarət sikkə dəfinəsi ilk dəfə tədqiq edilmişdir. 2006-cı ildə muzeyə təhvil verilən bu sikkə dəfinəsindəki mis sikkələr Azərbaycan atabəyləri - Məhəmməd Cahan Pəhləvan (1175 - 1186), Əbubəkr (1191 – 1210), Özbək (1210 - 1225) və Azərbaycan atabəylərinin vassalları, Dərbənd əmirləri - Müzəffər (1136 - 1160), Bekbars (1160 - 1180), Əbdəl-Məlik (1180 - 1225) və Cənubi Azərbaycanın Əhar məliki - Biştəkin ibn Muhəmməd (1175 - 1210) adından zərb edilmişdir.
Qeyd edilən dövrdə Azərbaycanın pul təsərrüfatını açıqlayan belə sikkələr həm də dövrün inancının İslam dini olduğunu, sikkələrdəki yazılar və təsvirlər isə hərb tarixi və sənətkarlığı büruzə verir.
Məqalədə Azərbaycan atabəyləri və onların vassallarının mis sikkələrinin fərqli tiplərdə və çəkilərdə olduğu vurğulanmış, "gümüş böhranı" dövrü adlandırılan mərhələdə sikkəyə artan tələbatın Azərbaycan şəhər-zərbxanalarının (Gəncə, Bərdə, Beyləqan, Şəmkir və d.) istehsalı sayəsində ödəndiyi göstərilmişdir. Dövrümüzədək gəlib çatan Çiləgir dəfinəsi milli numizmatikamızın dəyərli tapıntılarındandır. Belə faktları toplamaq, tədqiq etmək və qorumaq hər bir vətəndaşın borcudur.
**Açar sözlər:** sikkə, dəfinə, Quba, Çiləgir, dirhəm, mis, dinar.

**UOT:** 93/94
**DOI:** doi.org/10.54414/gedh7438

## Giriş

**Mövzunun aktuallığı.** Müasir dövrümüzdə istər arxeoloji qazıntılarda, istərsə də təsadüfən tapılan sikkələrin numizmatik təyinatı onların zərb edilmə dövrünü aydınlaşdırmağa imkan yaradır. Eldənizlər (Azərbaycan atabəyləri) dövrünə aid sikkələrlə əlaqədar numizmatik metodlara yenidən baxmağa imkan yaradan məqalədə araşdırılan 2006-cı ildə Quba rayonunun Çiləgir sikkə kəndində tapılmış sikkə dəfinəsi önəmli faktlardandır.

**Mövzunun işlənmə dərəcəsi.** Mövcud numizmatik tədqiqatlara əsasən, Azərbaycan atabəyləri (Eldənizlər) dövrünə dair numizmatik tapıntıların tədqiqinə XIX əsrin II yarısında maraq yaranmış, növbəti dövrlərdə aşkarlanan yeni tapıntılar bu sahənin inkişafına rəvac vermişdir.

Məqalədə tədqiq edilən sikkələrin analoqları əvvəlki tədqiqatlarda da işıqlansa da [1, s. 144-156;2, s. 82 – 90; 4, p. 527-541; 3, s. 45 – 86.) məhz bu məqalədəki dəfinə barədə məlumat ilk dəfədir təqdim olunur.

**Mövzunun elmi yeniliyi.** Məqalədə ilk dəfə olaraq 14 dekabr 2006-cı ildə AMEA Azərbaycan Tarixi Muzeyinə 16 saylı aktla təhvil verilən Quba rayonunu Çiləgir kəndində aşkarlanmış Azərbaycan atabəyləri, Dərbənd və Əhar məlikləri dövrünə aid mis sikkələrdən ibarət dəfinə (46 ədəd) tədqiq edilmişdir. Hazırda muzeyin Numizmatika Fondunda qorunan, XIII – XIII əsrin əvvəllərinə aid bu sikkə dəfinəsi əsrlərdə Azərbaycanın daxili pul təsərrüfatında işlədilən sikkələr barədə məlumat verir.

Azərbaycan tarixində önəmli mərhələlərdən olan, tarixşünaslıqda Eldənizlər və ya Azərbaycan atabəyləri (hicri 531 – 607 = miladi 1136 – 1225) olaraq tanınan dövlətin maraqlı arxeoloji tapıntılarından biri də dövrün numizmatik faktları - sikkələrdir. Belə sikkələrin məhz Azərbaycan ərazisində tapılması onların yerli zərbxanalarda istehsal edildiyini və yerli pul təsərrüfatında işlədildiyini təsdiq edir.

Tarixi tədqiqatlardan məlumdur ki, Səlcuqlu atabəyləri olan Eldənizlər hicri 545 = 1150-ci

ildə müstəqillik əldə edərək Cənubi Azərbaycandakı bir sıra ərazilərə rəhbərlik etmişlər. Naxçıvan, Həmədan, Təbriz şəhərləri müəyyən fasilələrlə bu imperiyanın paytaxt şəhərləri statusunda olmuşlar.

Azərbaycan atabəyləri dövlətinin pul təsərrüfatı haqqında məlumat verən belə faktlar müxtəlif məkanlarda aşkarlanmışdır. Bu məqalədə əvvəlki numizmatik araşdırmalarda əksini tapmayan 2006-cı ildə Quba rayonunu Çiləgir kəndində aşkarlanmış sikkə dəfinəsi haqqında bəhs ediləcəkdir.

Qeyd edilən dəfinə muzeyə təhvil verildikdən sonra tarix elmləri doktoru, professor Əli Rəcəbli tərəfindən numizmatik təyinata cəlb edilmiş və aşağıdakı mis sikkələr haqqında məlumat əldə edilmişdir:

1) NF 54026. Məhəmməd Cahan Pəhləvan (1175 - 1186), xəlifə Müstədi (1170 - 1180), sultan Toğrul (1177 - 1194), 14,8 q

2) NF 54027. Məhəmməd Cahan Pəhləvan (1175 - 1186), xəlifə Müstədi (1170 - 1180), sultan Toğrul (1177 - 1194), 16 q

3) NF 54029. Əbubəkr (1191-1211) və ya Özbək (1210 - 1225), xəlifə ən-Nasir (1180-1225). 8,9 q

4) NF 54030. Əbubəkr (1191-1211) və ya Özbək (1210 - 1225), 8,5 q

5) NF 54031. Əbubəkr (1191-1211) və ya Özbək (1210 - 1225), 3,6 q

6) NF 54032. Əbubəkr (1191-1211) və ya Özbək (1210 - 1225), 7,7 q

7) NF 54033. Əbubəkr (1191-1211) və ya Özbək (1210 - 1225), 8,8 q

8) NF 54034. Əbubəkr (1191-1211) və ya Özbək (1210 - 1225), 4,1 q

9) NF 54028. Özbək (1210-1225), xəlifə ən-Nasir (1180-1225). 10,2 q

10) NF 54035. Atabəy, sultan adları silinib, xəlifə ən-Nasir, 5,7 q

11) NF 54036. Atabəy, sultan adları silinib, xəlifə ən-Nasir, 8,3 q

12) NF 54037. Atabəy, sultan adları silinib, xəlifə ən-Nasir, 12,9 q

13) NF 54038. Atabəy, sultan adları silinib, xəlifə ən-Nasir, 7,2 q

14) NF 54039. Yazılar silinib, 9,2 q

15) NF 54040. Yazılar silinib, 5,7 q

16) NF 54041. Yazılar silinib, 12,3 q

17) NF 54042. Yazılar silinib, 7,7 q

18) NF 54043. Yazılar silinib, 7 q

19) NF 54067. Atabəylərin vassalları. Bekbars (1160-1180), xəlifə ən-Nasir (1180-1225), Dərbənd, 7,3 q

20) NF 54068. Atabəylərin vassalları. Bekbars (1160-1180), xəlifə ən-Nasir (1180-1225), Dərbənd, 4,8 q

21) NF 54069. Atabəylərin vassalları. Bekbars (1160-1180), xəlifə ən-Nasir (1180-1225), Dərbənd, 6,4 q

22) NF 54070. Atabəylərin vassalları. Bekbars (1160-1180), xəlifə ən-Nasir (1180-1225), Dərbənd, 3,3 q

23) NF 54071. Atabəylərin vassalları. Bekbars (1160-1180), xəlifə ən-Nasir (1180-1225), 4,3 q

24) NF 54072. Atabəylərin vassalları. Bekbars (1160-1180), xəlifə ən-Nasir (1180-1225), 5,5 q

25) NF 54073. Atabəylərin vassalları. Bekbars (1160-1180), xəlifə ən-Nasir (1180-1225), Dərbənd, 4,4 q

26) NF 54074. Atabəylərin vassalları. Bekbars (1160-1180), xəlifə ən-Nasir (1180-1225), Dərbənd, 2,7 q

27) NF 54075. Atabəylərin vassalları. Bekbars (1160-1180), xəlifə ən-Nasir (1180-1225), Dərbənd, 3 q

28) NF 54076. Atabəylərin vassalları. Bekbars (1160-1180), xəlifə ən-Nasir (1180-1225), 2,9 q

29) NF 54077. Atabəylərin vassalları. Bekbars (1160-1180), xəlifə ən-Nasir (1180-1225), Dərbənd, 1,8 q

30) NF 54078. Atabəylərin vassalları. Bekbars (1160-1180), xəlifə ən-Nasir (1180-1225), Dərbənd. 8,4 q

31) NF 54079. Atabəylərin vassalları. Müzəffər (1136 - 1160), xəlifə ən-Nasir (1180-1225), digər adlar silinib, Dərbənd, 9,2 q

32) NF 54080. Atabəylərin vassalları. xəlifə ən-Nasir (1180-1225), digər adlar silinib, Dərbənd, 13,4 q

33) NF 54081. Atabəylərin vassalları. Bekbars (1160-1180), xəlifə ən-Nasir (1180-1225), məlik Müzəffər (1136 - 1160), 5,4 q

34) NF 54082. Atabəylərin vassalları. Bekbars (1160-1180), xəlifə ən-Nasir (1180-1225), məlik Müzəffər (1136 - 1160), Dərbənd, 5,6 q

35) NF 54083. Atabəylərin vassalları. Bekbars (1160-1180), xəlifə ən-Nasir (1180-1225), məlik Müzəffər (1136 - 1160), Dərbənd, 3,7 q

36) NF 54084. Atabəylərin vassalları. Bekbars (1160-1180), xəlifə ən-Nasir (1180-1225), məlik Müzəffər (1136 - 1160), 3.3 q

37) NF 54085. Atabəylərin vassalları. Bekbars (1160-1180), xəlifə ən-Nasir (1180-1225), məlik Müzəffər (1136 - 1160), Dərbənd, 2,8 q.

38) NF 54086. Atabəylərin vassalları. Əbdülməlik (1180-1225), 13,4 q.

39) NF 54061. Atabəylərin vassalları. Bişkin (1175-1210), xəlifə ən- Nasir (1180 - 1225), atabəy [Özbək – 1210 - 1225], 5,6 q

40) NF 54062. Atabəylərin vassalları. Bişkin (1175-1210), xəlifə ən- Nasir (1180 - 1225), atabəy [Özbək – 1210 - 1225], 6,1 q

41) NF 54063. Atabəylərin vassalları. Bişkin (1175-1210), xəlifə ən- Nasir (1180 - 1225), atabəy [Özbək – 1210 - 1225], 7,2 q

42) NF 54064. Atabəylərin vassalları. Bişkin (1175-1210), xəlifə ən- Nasir (1180 - 1225), atabəy [Özbək – 1210 - 1225], 4,9 q

43) NF 54065. Atabəylərin vassalları. Bişkin (1175-1210), Əhar, 8 q

44) NF 54066. Atabəylərin vassalları. Bişkin (1175-1210), Əhar, 6,4 q

45) NF 54087 a. Atabəylərin vassalları. Metal qırıntısı, 12,8 q

46) NF 54087 b. Atabəylərin vassalları. Metal qırıntısı, 6,81 q.

Qeyri-standart görünüş, fərqli çəki və möhürlərinin səliqəsiz olması belə dirhəmlərin numizmatik təyinatını çətinləşdirsə də, numizmatik təcrübə onları müəyyənləşdirməsinə yardımçı olur. Beləliklə, dəfinədə aşağıdakı hökmdarlar dövrünə aid dirhəmlər vardır.

**Əbu Cəfər Nusrət əd-Din Muhəmməd Cahan Pəhləvan (1175-1186) dövrünün mis sikkələri.** Əbu Cəfər Nüsrətəddin Muhəmməd Cahan Pəhləvan dövrünə aid qeyri-sabit çəkili sikkələrinin bəzilərinə onun adı və titulları (“əzəmətli məlik”, “əzəmətli atabəy”, “əzəmətli sultan”, “dünya və dinin əzizi (Günəşi)”, “aləmin məliki”, “ədalətli” və b.), digərlərinə isə həm onun adı, həm də qardaşı Müzəffərəddin Qızıl Arslanın (1186-1191) adı və titulları (“əmirlərin əmiri”), başqa bir qisminə Səlcuqlu sultanları - Arslan ibn II Toğrul (1161-1175), III Toğrul (1177-1194), Abbasi xəlifəsi - Mustədinin (1170-1180), ən-Nasirin (1180-1225) adları həkk edilib.

Muhəmməd Cahan Pəhləvan hakimiyyətə gəldikdən sonra “əmirlərin əmiri” tituluna layiq görülən qardaşı Qızıl Arslanı qoşun rəhbəri və Azərbaycan ilə Arranın canişini təyin etmişdir [3, s. 63]. Bu dövrün sikkələrinin bəzilərinə müxtəlif təsvirlər (alov, qılınc) həkk edilib.

Müvafiq dövrün sikkələrinə Muhəmməd Cahan Pəhləvan ilə birgə aşağıdakı hökmdarların adları həkk edilib:

1. 571 = 1175 - əl-Mustədi və Arslan ibn II Toğrul (1161-1175);

2. 571 - 575 = 1175 – 1179-ci illər:
- əl-Mustədi və Arslan;
- əl-Mustədi və III Toğrul.

3. 571 – 582 = 1176 – 1186-cı illər - “şəms əl-dunya vəd-din” (dünya və dinin Günəşi) və “əmir əl-umərа” (əmirlərin əmiri) sözləri ilə.

4. 575 – 582 = 1179 – 1186-ci illər:
- ən-Nasir;
- əl-Nasir və III Toğrul;
- əl-Nasir, anonim sultan və Qızıl Arslan [5].

Həm Eldəniz, həm də Muhəmməd Cahan Pəhləvan dövründə aid bəzi sikkələrə Quran-Kərimin “Tövbə” surəsinin 33-cü ayəsindən bir hissə zərb edilmişdir.

Məhz Muhəmməd Cahan Pəhləvanın hakimiyyəti dövründə mərkəzi hakimiyyətə qarşı olan üsyanlar yatırılmış, qonşu sülalələrlə dostluq münasibətləri yaradılmış və Eldənizlər dövlətinin vəziyyəti sabitləşmişdir. Bu hökmdardan sonra hakimiyyətə onun qardaşı Qızıl Arslan (1187 - 1191) gəlmişdir.

Qızıl Arslanın ölümündən sonra dövlətdə yaranan taxt müharibələri Muhəmməd Cahan Pəhləvanın oğlu - Nusrət əd-Din Əbu Bəkrin hakimiyyətə gəlməsi ilə nəticələnmişdir.

**Nusrət əd-Din Əbu Bəkr (1191 - 1211) dövrünün mis sikkələri.**

Əbubəkr ibn Muhəmməd (587 – 607 = 1191 – 1210) dövrünə aid bəzi sikkələrə yalnız adı və titulları (“əzəmətli atabəy”, “şahənşah” və d.) olsa da, digərlərinə həm onun, həm də Abbasi xəlifəsi ən-Nasirin (1180–1225, “şahənşah”, “əmirəl əl-ümərа” titulları ilə) adı və titulu həkk edilib. Həm onun, həm də Cəhan Pəhləvanın adları olan sikkələrdən əlavə həm də hər ikisinin və Abbasi xəlifəsi ən-Nasirin adları olan sikkələr də məlumdur [5].

Bu dövrün bəzi sikkələrinə “Əbubəkr” sikkəüstü zərbi, ikidişli (bəzən üçdişli) yaba, xəncər təsviri həkk edilib.

Bu hökmdar dövrünə aid maraqlı tapıntılardan biri də 7,41 - 7,88 q çəkili Şəmkirdə zərb edilən nadir mis sikkələrdir [3, s. 68].

Əbu Bəkr, Cahan Pəhləvan və Abbasi xəlifəsi ən-Nasirin adlarından zərb edilən nadir qızıl sikkələr (1,54 – 3,65 q) hazırda Amerika Numizmatika Cəmiyyətində qorunur [4, p. 527-541].

Çiləgir dəfinəsində həm də **Özbək ibn Muhəmməd (607 - 622 = 1210 - 1225)** dövrünün sikkələri də vardır. Bu hökmdarın adı və titulu ("əzəmətli atabəy") və Abbasi xəlifəsi ən-Nasirin (1180– 225) adı və titulu həkk edilib. Belə sikkələrin bəzilərinə üçdişli yaba təsviri zərb edilib. Ildegizids [5].

Araşdırmağa cəlb etdiyimiz dəfinədə Azərbaycan atabəylərinin vassalları, Dərbənd əmirləri - Müzəffər (1136 - 1160), Bekbars (1160 - 1180), Əbdəl-Məlik (1180 - 1225) və Cənubi Azərbaycanın Əhar məliki - Biştəkin ibn Muhəmməd (1175 - 1210) adından zərb edilən mis dirhəmlərin və felslərin olduğu da müəyyən edilmişdir.

**Nəticə**

Azərbaycan atabəyləri dövlətində mis sikkələrin zərbinin önəmli xüsusiyyətləri sırasında bir tərəfdən pul bazarında xırda pula olan ehtiyac, digər tərəfdən isə belə ehtiyacı ödəmək üçün zərbxanaların texniki imkanları xüsusi qeyd edilməlidir.

Daxili pul ehtiyacını ödəmək üçün zərbxanalarda gümüşün misə (1:30) nisbətində mis sikkələr zərb etmək məcburiyyəti yaranmışdı.

Eynilə atabəylər kimi onların vassalları da iki növ mis sikkələr – dirhəm və fels zərb edirdilər.

Araşdırmamız nəticəsində aşağıdakı qənaətlər əldə edilmişdir:

- Azərbaycan atabəylərinin müxtəlif tipli sikkələrinin tədqiqi onları 4 tipə ayırmağa imkan verir: a) atabəy, xəlifə, sultan adları, titulları və zərbxana olan iri və ağırçəkili sikkələr (Ərdəbil; bəzilərinə "dirhəm" sözü həkk edilib); b) atabəy və sultan adları olan dairəvi, zərif sikkələr (Təbriz və ya Dvin); c) qalın, kobud və itiuclu sikkələr (Gəncə, Bərdə, Beyləqan, Şəmkir və d.); ç) atabəy və xəlifə adları olan sikkələr (Gəncə; bəzilərində "dirhəm" sözü);
- məhz qeyd edilən dövrdə "dirhəm" anlayışı ilə ağırçəkili mis sikkələr ifadə edilmişdir;
- qeyd edilən dövrdə Azərbaycan atabəyləri adından qızıl dinarlar da zərb edilmişdir;
-Azərbaycan atabəyləri dövlətin müstəqilliyini müəyyən dərəcədə qorumaq üçün şəxsi adları olan sikkələr zərb ediblər. Belə faktlar dövlətçilik tariximizin unikal faktlarıdır;
- Qeyd edilən dövrdə şəhərlərin sürətli inkişafı əmtəə istehsalı və ticarətin genişlənməsinə səbəb olmaqla sikkəyə tələbat artmışdı. Bu tələbat isə Azərbaycanda məhz mis sikkələrlə ödənmişdir.
- Azərbaycanın iqtisadi yüksəlişi və mədəni çiçəklənməsi ilə özünü büruzə verən araşdırdığımız dövrdə Azərbaycanda yaşanan "gümüş böhranı" Ön Asiyada da müşahidə edilmişdir.

Eldənizlər dövrünə aid sikkələr Quba rayonundan əlavə Bakı, Beyləqan, Şamaxı, Xankəndi, Ağdam, Bərdə, İmişli, Gəncə, Lənkəran, Naxçıvan MR-da aşkarlanmışdır. Abbasilər, Samanilər, Ziyarilər, İləklər, Simcurilər, Buveyhilər, Məmunilər, Volqa bulqarları, Əhar məlikləri, şirvanşah-Kəsranilər, Səlcuqilər, Dərbənd məlikləri, Danişməndilər, Zəngilər, Əyyubilər, Xarəzmşahlar, Baqratilər və Bizans sikkələri ilə müvafiq dövrdə zərb edilən belə birgə aşkarlanması uyğun dövrün ticarət əlaqələrini təsdiq edir.

**ƏDƏBİYYAT SİYAHISI:**

1. Rəcəbli Ə.M. "Gümüş böhranı" və Azərbaycan Atabəyləri dövlətində sikkə zərbi və pul dövriyyəsi (XII – XIII əsrlər) // Azərbaycan sikkələri. Bakı: Xalqbank, 2012, s. 144-156

2. Пахомов Е.А. Монетное обращение Азербайджана в XII и начале XIII века // Труды Государственного Исторического Музея. Вып. 21, М.: 1957, с. 82-90

3. Сейфеддини М.А. Монетное дело и денежное обращение в Азербайджане XII – XV вв. Баку: Элм, 1978

4. Koumdjian D. Three unique gold coins of the Eldiguzid Atabegs of Nothwestern Iran // p. Tirage a part de actes du 8eme Congres International de numismatique. New York-Washington, 1973, p. 527-541.

5.Ildegizids // https:// www. zeno.ru/showgallery.php?cat=1093

**AYGUN MUSA MAMMADOVA**
Head of the Numismatics Fund of the National Museum of History of Azerbaijan of ANAS,
West Caspian University,
PhD in History
E-mail: aygun_kons@mail.ru

## THE COIN HOARD FROM THE VILLAGE OF CHILAGIR OF GUBA REGION, REVEALS THE COIN ECONOMY OF THE 12TH-13TH CENTURIES

**Abstract:** In the article, a coin hoard consisting of 46 coins which was found from the village of Chilagir of Guba region and now preserved in the Numismatic Fund of the National Museum of the History of Azerbaijan of ANAS, was studied for the first time. This treasure, handed over to the museum in 2006, consists of copper coins bearing the names of Azerbaijan atabegs
Muhammad Jahan Pehlivan (1175 – 1186), Abubekr (1191 – 1210), Uzbek (1210 - 1225) and vassals of Azerbaijani atabegs, emirs of Derbend – Muzaffar (1136 – 1160), Bekbars (1160 – 1180), Abdal-Malik (1180 – 1225) and meliks of Ahar in South Azerbaijan Bishtekin ibn Muhammad (1175 - 1210).
The coins of this hoard, explaining the monetary economy, also confirm that the main faith of the period was the Islamic religion, and the inscriptions and drawings of the coins tell about military history and craftsmanship.
In the article, the author emphasizes that copper coins of the atabegs of Azerbaijan and their vassals were in different types and weights and the increased demand for a coin during the period of "silver crisis" was met by Azerbaijani city-mints (Ganja, Barda, Beylagan, Shamkir, etc.).
The treasure of Chilagir, which has come down to modern times, is one of the valuable findings of our national numismatics. It is the duty of every citizen to collect, to study and to preserve such facts.
**Keywords:** coin, treasure, Guba, Chilagir, dirham, copper, dinar.

**АЙГЮН МУСА кызы МАМЕДОВА**
Заведующий фондом нумизматики Национального музея истории Азербайджана НАНА,
Западно-Каспийский университет,
доктор философии по истории
E-mail: aygun_kons@mail.ru

## МОНЕТНЫЙ КЛАД ИЗ СЕЛА ЧИЛЯГИР РАЙОНА ГУБИНСКОГО РАЙОНА РАСКРЫВАЕТ МОНЕТНОЕ ХОЗЯЙСТВО XII – XIII ВЕКОВ

**Резюме:** В статье впервые исследован монетный клад (46 монеты) из села Чилягир Губинского района, ныне хранящийся в Нумизматическом Фонде Национального Музея Истории Азербайджана НАНА. Данный клад, переданный в музей в 2006-м году состоит из медных монет атабеков Азербайджана Мухаммеда Джахана Пехливана - 1175 – 1186; Абубекра - 1191 – 1210, Узбека - 1210 - 1225 и вассалов Азербайджана, эмиров Дербенда – Музаффара - 1136 - 1160, Бекбарса - 1160 - 1180, Абдал-Малика - 1180 – 1225 и меликов Ахара – Биштекина ибн Мухаммеда (1175 - 1210). Монеты данного клада, разъясняющие монетное хозяйство, также подтверждают о том, что основной верой периода была Исламская религия, а надписи и рисунки монет повествуют о военной истории и мастерство.
В результате статьи автор приходит к выводу, о том, что разновесные и разнотипные монеты атабеков Азербайджана и их вассалов, употребляли нужду в монете в период «серебряного кризиса» и чеканились в городах-монетных дворах Азербайджана – Гяндже, Барде, Бейлагане, Шамкире и др.
Клад Чилягир, дошедший до современного времени является ценной находкой национальной нумизматики. Долгом каждого гражданина является собирание, изучение и сохранение таких фактов.
**Ключевые слова:** монета, клад, Губа, Чилягир, дирхем, медь, динар.
**Daxil olub:** 28.08.2021